

# Avropa Oyunlarının məşəli qədim tarixi, füsunkar təbiəti, sürətli sosial-iqtisadi inkişafı ilə seçilən Qəbələdə alovlandı



## İlk Avropa Oyunları məşəlinin səyahət yolu

**Atəşgah Məbədi -Naxçıvan - Lənkəran - Lerik - Astara - Yardımlı - Masallı - Biləsuvar - Cəlilabad - Salyan - Neftçala -Şirvan - Hacıqabul - Saatlı - Sabirabad -İmişli- Füzuli (Horadiz) - Beyləqan - Yeni Xocavənd - Ağcabədi - Ağdam (Quzanlı) - Zərdab - Tərtər - Yevlax - Bərdə - Goranboy -Naftalan - Göygöl - Gəncə -Daşkəsən - Samux - Qazax - Ağstafa - Tovuz - Gədəbəy - Şəmkir - Ucar - Göyçay - Ağdaş - Mingəçevir - Balakən - Zaqatala - Qax - Oğuz - Şəki - İsmayıllı - Qəbələ -Kürdəmir - Ağsu - Qobustan - Şamaxı - Sumqayıt - Xızı - Qusar - Quba - Xaçmaz - Şabran - Siyəzən - Xırdalan - Qobustan Milli Parkı - Bakı Olimpiya Stadionu**

Artıq 31 gündür ki, Azərbaycanın və dünya idman ictimaiyyətinin diqqəti tarixi hadisə olan Avropa Oyunlarının start mərhələsinə yönəlib. Aprel ayının 26-da doğma Azərbaycanın paytaxtı Bakının Atəşgah məbədindən alovlandırılan məşəl respublikanın 46 rayonundan 4 min kilometrdən artıq yol keçərək may ayının 26-da qədim tarixi, ecazkar təbiəti, sürətli sosial-iqtisadi inkişafı ilə seçilən və dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrilməkdə olan Qəbələyə çatdı. Hər bir rayonda yüksək qələbəlik, böyük izdihamla qarşılanan məşəl Qəbələ idmansevərlərinə, bütün qəbələlilərə çox həyacanlı bir an yaşatdı.




Mayın 26-da şəhərin cənub tərəfdəki girişindən mərkəzdəki ümummilli liderin adını daşıyan parka qədər, təqribən 3 min metrlik bir məsafədə uzanan yolun hər iki tərəfinə minlərlə Qəbələ sakinləri toplaşmışdı. Bu izdihama təkcə şəhər mərkəzinin sakinləri deyil, bütün kəndlərdən gələn sakinlər, ağsaqqallar, gənclər, məktəblilər qatılmışdılar. Onların hamısının məqsədi I Avropa Oyunlarının tərkib hissəsi olan məşəl yürüşünün iştirakçısına çevrilmək, ən əsası bu möhtəşəm idman bayramının sevincinə qoşulmaq, yüksək səviyyəli tarixi hadisənin Qəbələ həyəcanını yaşamaq idi. Onlar əllərində tutduqları Azərbaycanın üçrəngli Dövlət bayraqlarını, I Avropa Oyunlarının simvollarını, müxtəlif rəngli şarları dalğalandıraraq məşəlin gəlməsini gözləyirdilər. Musiqi sədaları, çal-çağır ətrafı bürüyürdü. Hamının gözü şəhərin cənub girişinə, Heydər Əliyev prospektinə dikilmişdi. Budur, nəhayət məşəli gətirən karvan göründü. İzdiham hərəkətə gəlir, sanki dəniz kimi dalğalanır. Musiqi sədaları, alqışlar, təbiətin gözəlliyi və bahar təravəti mərasimə xüsusi rəng qatır. Əvvəlcədən müəyyən edilmiş məşəli qəbul edəcək fəallar rəmzi ala qapının qarşısında hazır vəziyyətə gəlirlər. Alqış sədaları altında I Avropa Oyunlarının məşəli fəal gənc, Qəbələ sakini Anar Mustafayevə təqdim edilir. Rayonun fəal gəncləri Tarıyel Həsənov, Namiq Ağayev, İbrahim Faxlulov, Zaur Tahirov, İsmayıl Məmmədov və başqaları əvvəlcədən müəyyən edilmiş marşurut üzrə məşəli başları üzərinə qaldırır və bir-birinə ötürə-ötürə Heydər Əliyev parkına doğru irəliləyirlər. Məşəlçilər gurultulu alqışlar altında inamla yollarına davam edirlər. Küçələr boyu məşəlçiləri qarşılayan insanlar onların arxasınca Heydər Əliyev parkına tələsirlər.










Tədbirdə iştirak edənlər arasında Azərbaycan Taekvando Federasiyasının Qəbələ rayonu üzrə qara kəmər III dan məşqçi müəllimi Xəyal Əzizov da vardır. O, bugünki tədbir, ümumiyyətlə ilk dəfə Azərbaycanda keçirilən birinci Avropa Oyunları haqqında fikirlərini söylədi: «İlk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi nəinki Azərbaycanın, hətta dünya idmanının həyatında deyərdim ki, tarixi bir hadisədir. Eyni zamanda bu tarixi hadisə müstəqil Azərbaycanın qısa zaman kəsiyində qazandığı nüfuzunu, onun dünya ölkələri arasında hansı gücə və nəyə qadir olduğunu nümayiş etdirən bir hadisədir. Əlbəttə, Avropa Oyunları həyacanını hazırda bütün Azərbaycan yaşayır. Məşəlin bu gün Qəbələyə gəlməsi isə bütün qəbələlilər kimi məndə də gürur hissi doğurur, ən xoş duyğular yaradır. İdmançılarımız bu gün məşəlin Qəbələyə gəlməsi münasibətilə təşkil olunan festivalda da çıxış edəcəklər. Azərbaycanın ən güclü idmançılarının isə yarışmalardakı çıxışları, onların hər bir qələbəsi xalqımıza yəqin ki, sevinc dolu anlar yaşadacaqdır.

Bu yarışmalarda iştirak edən hər bir idmançımıza uğurlar arzulayıram».

**(Ardı 3-cü səhifədə).**